*A.Müseyibova. Heydər Əliyev- müstəqil Azərbaycanın xilaskarı və qurucusu // Əlyazmalar yanmır, 2023, №1 (16), s. 26-28.*

UOT: 94(479.24)

**Aidə Müseyibova**
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail:aidemuseyibova@gmail.com*

# HEYDƏR ƏLİYEV – MÜSTƏQİL AZƏRBAYCANIN XİLASKARI VƏ QURUCUSU

**Xülasə**

Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi müxtəlif dövrlərdə, yəni 1969-1982-ci illərdə və 90-cı illərin əvvəllərində hakimiyyətə qayıtdıqdan sonra ölkənin siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrinin inkişafı naminə uğurlu fəaliyyətindən bəhs edilir.

***Açar sözlər:*** *Heydər Əliyev, ümummilli lider, xilaskar, uğurlu siyasət, inkişaf*

## Giriş

*Böyük şəxsiyyət, dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətinin qurucusu, ümumi liderimiz Heydər Əliyev haqqında yazmaq şərəfli və məsuliyyətlidir. Uzun illər həyatını Azərbaycanın dövlət quruculuğuna, inkişafına həsr etmiş Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illəri iki dövrə bölmək olar. 1969-1982-ci illəri əhatə edən birinci dövr sovet hakimiyyəti illərinə təsadüf edir ki, həmin illər də ümummilli liderimizin fəaliyyəti sayəsində bütünlüklə Azərbaycanın ümumi yüksəlişi dövrü kimi xarakterizə olunur. Belə ki, 1970-1985-ci illər Sovet Azərbaycanının tarixinə ən parlaq quruculuq dövrü kimi daxil olmuşdur. Ümummilli liderin Azərbaycana rəhbərliyinin ikinci dövrü isə müstəqillik dövrünə təsadüf edir. Müstəqilliyin ilk illərində əsassız müharibəyə sürüklənən və ölkə daxilində yaranan siyasi xaos nəticəsində dağılmaq təhlükəsi qarşısında qalan dövlətimizin başına yenidən Heydər Əliyev keçdi. Məhz o, ölkəni dağılmaqdan, parçalanmaqdan xilas etdi və yeni, müasir dövlətin qurulmasına başlanıldı ki, məqalədə də bu məsələlərdən geniş bəhs edilmişdir.*

Ümummilli lider Heydər Əliyevin birinci hakimiyyət dövrü 1969-1982-ci illərə, yəni sovet hökuməti dövrünə təsadüf edir. Bütün sahələrlə yanaşı, ümummilli liderin ən çox önəm verdiyi məsələlərdən biri də məhz gənclərlə bağlı idi. Bu illərdə yüzlərlə yeni tədris ocaqlarının, gənclik mərkəzlərinin, hərbi məktəblərin açılması, minlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa, müasir ixtisaslara yiyələnmələri üçün göndərilməsi danılmaz faktdır. O, deyirdi: *"Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazım fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir".[2;110]*

Məhz bu fikrin təsdiqi olaraq Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakı şəhərindəki 2 saylı 8 illik internat məktəbinin bazasında diviziya komandiri Cəmşid Naxçıvanski adına Bakı İbtidai hərbi məktəbi yaradılmışdır. 24 noyabr 1997-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə məktəbin adı dəyişdirilərək "Cəmşid Naxçıvanski adına Hərbi Litsey" adlandırılmışdır.

Müstəqilliyimiz bərpa edildikdən bu günümüzədək Azərbaycan gəncliyi böyük inkişaf yolu keçmişdir. Ölkəmizin ictimai-siyasi, sosial-mədəni arenasında fəal iştirakına həmçinin, sağlam bədənli, sağlam ruhlu, düşünmək baxımdan kreativ yeni nəsil formalaşmasında gəncliyin töhfəsinin təmin olunmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri var.

Yuxarıda deyildiyi kimi, Azərbaycanın xilaskarı Heydər Əliyevin ikinci hakimiyyət dövrü müstəqilik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edir. 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisin birinci sessiyası keçiriləndə Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq üç rəngli bayrağımız binanın üzərində dalğalandı. Məhz bu hadisə müstəqilik uğrunda mübarizə tariximizin parlaq səhifəsidir.

Burada ümummilli lider Heydər Əliyevin dediyi bir fikri xüsusilə vurğulamaq başlamaq yerinə düşür: *"Mən həyatda yalnız üç şeyə arxalanmışam: yaradanıma, zəhmətimə və bir də xalqıma*".[6; 3]

1987-1992-ci illərdə böyük öndər illərlə qurduğu bir məmləkətin dağılmasının, talan və viran edilməsinin ağrılarını yaşadı. Yeni müstəqilliyə qədəm qoyan Azərbaycanda dövlətçiliyi qoruyub saxlamaq üçün ölkə rəhbərliyinə təcrübəli, qətiyyətli siyasi liderin gəlməsi olduqca vacib idi və xalqımız haqlı olaraq böyük oğluna müraciət etdi. Heydər Əliyev 1993-cü ildə Bakıya gəldi və onun Azərbaycanda siyasi hakimiyyətinin fərqli bir dövrü başladı. Vətən faciəsinə dözə bilmədi. Düz on il gecə - gündüz çalışdı. Heydər Əliyevin gəlişi ilə Azərbaycanda əbədi siyasi sabitlik və sosial sakitliyin təməli qoyuldu. Sülh və əmin-amanlıq bərqərar olundu. Azərbaycanı Heydər Əliyev xilas etdi. Böyük Öndər haqqında yazılmış əsərlərdə onun uğurlu fəaliyyətini ifadə edən xilaskar kəlməsidir. [1, s. 6]

Cəbhədə atəşkəs əldə olunduqdan sonra Azərbaycanın ordu quruculuğu ilə paralel olaraq digər sahələrin də inkişafı üçün mühüm işlər görülməyə başladı. Belə sahələrdən ən mühümü məhz elm sahəsi idi. Çünki, Heydər Əliyev yaxşı bilirdi ki, düşmənlə mübarizədə tək ordu yox, Azərbaycan elmi də öz sözünü deməlidir.

*"Ümummilli lider Heydər Əliyev ictimaiyyət nümayəndələri ilə ilk görüşünü Elmlər Akademiyasında keçirməklə, ölkə ziyalılarına, intellektual potensiala çox böyük dəyər verdiyini, etimad etdiyini, onlara arxalandığını bir daha göstərmişdir.* [4, s. 24]

Heydər Əliyevin 15 may 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verildi. Onun Azərbaycan MEA-da keçirilən yığıncaqda söylədiyi fikirlər bu elmi müəssisəyə verilən yüksək qiymət idi: *"Azərbaycan Milli Akademiyasının bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq... Azərbaycan elmi heç vaxt bu qədər mütəşəkkil və bu qədər qüvvətli, güclü, çoxşaxəli olmayıbdır... "Müstəqil Azərbaycanın Elmlər Akademiyası bütün elmi potensialı özündə cəmləyərək, xalqımızın yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir".* [4, s. 5]

Azərbaycan müstəqillik qazandıqdan ilk dəfə olaraq 2001-ci ilin iyun ayında Azərbaycan MEA-nın tarixində xüsusi yer tutan seçkilər keçirilmişdir. Akademiyanın həqiqi və müxbir üzvlərinin ümumi sayı 200 nəfər müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli sərəncamına əsasən AMEA-nın Naxçıvan bölməsi yaradılmışdır.[4, s.38]

Ulu Öndər Heydər Əliyev son 10 il ərzində Azərbaycanın müstəqilliyinin qarşısı alınmaz bir prosesə çevirdi. Ölkəmizdə siyasi sabitliyi, qanunun aliliyini, demokratiyanı bərqərar etdi. [6, s. 14]

Vətənini sevən hər bir Azərbaycanlı isə Heydər Əliyevə xalqımızın həmin görkəmli simalarının bizə miras qoyduqları misilsiz əbədi irsə olduqca böyük dəyər verdiyi və onları yaddaşlarda əbədiləşdirdiyinə görə minnətdar olmalıdır.

*"Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcək. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır"*. [6, s. 338]

Ümummilli lider Heydər Əliyevin əbədiyyətə qovuşduğu 12 dekabr sevimli və unudulmaz ulu öndərimizin ümumxalq anım günüdür. Xalqımız Azərbaycan dövlətinin memarı və qurucusunun, müstəqilliyimizin xilaskarının, türk dünyasının böyük oğlunu xatirəsini ehtiramla yad edir. [2, s. 31]

*Qədir bilən xalqımız bu böyük insanı tükənməz məhəbbətlə sevir, şair və yazıçılarımız öz əsərlərində ona layiqli yer verir. Azərbaycan xalqının milli tarixi diplomatiyası üçün bənzərsiz ömür yaşamış Heydər Əliyev XX əsrdə vətənimizi təmsil etmiş mahir dövlət başçısı, kamil, aqil, müdrik ümummilli liderimizdir.* [5, s. 5]

**Nəticə**

*Onu demək mümkündür ki, ümummilli lider Heydər Əliyevə olan sevgi səbəbsiz deyil. Onun söylədiyi "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" fikri öz həqiqi əksini ölkəmiz, dövlətimiz üçün gördüyü işlərdə, apardığı hərtərəfli fəaliyyətində tapmışdır. Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi hər bir Azərbaycan vətəndaşının yaddaşında əbədi olaraq yaşayacaq.*

**Ədəbiyyat siyahısı:**

1. Əjdər Ol. Heydər Əliyev haqqında müdrik əhvalatlar. - Bakı: Nurlan, 2019, 176 s.
2. Əliyev A. Gənclərin hamisi. Xalq qəzeti. №3. 2020. 12 may
3. Əsgərov A. Azərbaycanı ucaldan və müstəqilliyə qovuşduran rəhbər. Xalq qəzeti. №7. 2015. 8 dekabr.
4. Heydər Əliyev. Ümummilli lider. - Bakı: Nurlan, 2013.- 274 s.
5. Həsənov M. Müasir Azərbaycanın Banisi, Xilaskarı, Qurucusu. - Bakı: Şəms. 2006, 520 s.
6. İsmayıl E. Böyük Öndər. - Bakı: Nurlan, 2004, 408 s.

**Aida Museibova**

**Heydar Aliyev – savior and founder of independent Azerbaijan**

The article describes the successful activities of National Leader Heydar Aliyev in the name of the development of political, economic, social, cultural and other spheres of the country during different periods of his leadership of Azerbaijan, that is, in 1969-1982, as well as after his return to power in the early 90s.

***Keywords:*** *Heydar Aliyev, national leader, savior, successful policy, development*

Filologiya üzrə fəlsəfə doktoru
**Tünzalə Seyfullayeva** tərəfindən çapa tövsiyə olunmuşdur.